# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 336** **Bakı şəhəri, 12 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 mart tarixli 76 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında avtomagistraldan ödənişli yol kimi istifadə Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1101-VIQD nömrəli Qanununun tətbiqi və “Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 mart tarixli 24 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 mart tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2019, № 3, maddə 510 (Cild I); 2024, № 3, maddə 304) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında avtomagistraldan ödənişli yol kimi istifadə Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“3.4. Hər bir ödənişli avtomagistral ilə nəqliyyat vasitələrinin gedişi üçün ödənişin məbləği avtomobil yolunun dərəcəsi nəzərə alınmaqla Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən təsdiq edilir.”.

**2.** 3.11.3.1-ci yarımbənddə “dərəcəsindən, nəqliyyat vasitəsinin qət etdiyi məsafədən, çəkisindən və ay ərzində gedişlərin sayından asılı olaraq” sözləri “dərəcəsi nəzərə alınmaqla” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 14 iyul, (№ 146).- S.6.